ədalət.-2017.-15 dekabr.-S.8.



**Mübariz Süleymanlı**

## Özümə

Sən gələndə sevinmişdi çox adam,
Gedəndə kim ağlayacaq bəs səni?
Axirətə üz tutanda, arxadan
Çağıracaq hansı doğma səs səni?

Elə et ki, sevənlərin çox olsun,
Yaxşılıq səp tarlasına ömrünün!
Nəfsini boğ, gözün-könlün tox olsun,
Savab qazan cəfasına ömrünün!

Süleymana qalmayan bu dünyanı
Süleymanlı tərk edəcək - bu, haqdır.
Buna görə anlayanı, duyanı
Saymamağın özü də bir günahdır.

## ŞAİRLƏRƏ

Söz üstündə əsməyi
Buyurub Tanrı bizə.
Düzü sapa düzməyi
Yazıb qismətimizə.

Nədənsə göz yumuruq
Hərdən bu həqiqətə.
Millətdən nə umuruq-
Biz gərəyik millətə!

Şair yazmasa düzü,
Ona şair deyilməz.
Tərəzidir el gözü,
Şair olan əyilməz.

Çalışın qorxmayın siz,
Ay qardaşlar, ölümdən.
Şair, şair olarsa,
Od qalanar külündən!

## AY ANA

Könülləri oxşamağı bacardın,
Ocaqlarda közün qalıb, ay ana.
Bir ləyaqət heykəlitək ucaldın,
Dilimizdə sözün qalıb, ay ana.

Saçlarına düşən dəni görmüşəm,
Başın üstən ötən çəni görmüşəm,
Bal yuxumda hər vaxt səni görmüşəm,
Xəyalımda izin qalıb, ay ana,

Nə qədər ki, sağdı mənim canım da,
Ruhun gəzir gecə-gündüz yanımda,
Yada sallam səni çətin anımda,
Səndən mənə dözüm qalıb, ay ana.

Sən ki vardın, sevincimdən coşardım,
Ən keçilməz zirvələri aşardım
Hər laylana həzin nəğmə qoşardım,
Çözülməyən çözüm qalıb,ay ana.

Ömrüm günüm yaman olub nəhs indi,
Sorağını hardan alım bəs indi ?
Əsən mehlər bəlkə sənin səsindi?
Qapılarda gözüm qalıb, ay ana.

## A DÜNYA

Altun gəncliyimi,aldın apardın,
Aldadıb toruna saldın,a dünya!
Şirin dillər ilə ruhumu sardın,
Elə bilirdim ki,baldın,a dünya!

Gözümün içinə danışdın yalan,
Tamam varlığımı eylədin talan.
Ögey balan oldum,mən ögey balan,
Sevinci əlimdən aldın,a dünya!

Dağıtdın yurdumun sən dağ-daşını,
Əzaba,zillətə qatdın başımı.
Sel kimi axıtdın gözüm yaşını,
Haqqımı daşlara çaldın,a dünya!

Əydin, kaman kimi əydin qəddimi,
Çox erkən tanıtdın mənə həddimi.
Bu bir taledimi,bir qismətdimi?
Özün də məəttəl qaldın,a dünya!

## QAYIT GƏL

Əl-ayağım buza dönüb vətənsiz,
Yaxın deyir,uzaq deyir, qayıt gəl.
Eşqim ruhum,solub sönüb vətənsiz,
Öləziyən çıraq deyir, qayıt gəl.

Bülbüllərin göyə çıxan naləsi,
Çatdığımız ocaqların şöləsi,
Yaxdığımız çıraqların haləsi
Qışlaq deyir, yaylaq deyir, qayıt gəl.

Zəhər dadır səhər axşam yediyim,
Dağ-daşını canım qədər sevdiyim,
Saf ürəklə ana, vətən dediyim,
Candan əziz, torpaq deyir, qayıt gəl.

Hey sarsılıb, hey saralıb solmuşam,
Qaralmışam bulud kimi dolmuşam,
Həsrətindən saçlarımı yolmuşam,
Məni üzən fəraq deyir qayıt gəl.

Küsüb məndən güvəndiyim dağlar da,
Gəncliyimə şahid olub çağlar da,
Xiffət çəkən bağçalar da, bağlar da,
Budaq deyir,yarpaq deyir, qayıt gəl.

Quzuların mələşdiyi düzənlər,
Dağ döşündə yasəmənlər, süsənlər,
Tənhalıqdan doluxsunub küsənlər,
Qəribsəyən bulaq deyir, qayıt gəl.

Öz elimdə, öz obamda ər idim,
Dərdlərimi çəkə-çəkə əridim,
Qürbət eldə puça döndüm kiridim,
Mənsiz qalan ocaq deyir, qayıt gəl.

## BİR ŞEİR QALACAQ ELİN YADINDA

Bir koma görünür şair ocağı,
Bir şair ömrünün başlanacağı,
Ömrün bahar fəsli xoşbəxtlik çağı,
Bir elin obanın haray səsidi.

Bir tale görünür qapısı bağlı,
Bir sinə görürəm necə də dağlı,
Bir damla göz yaşı sirli-soraqlı,
Bir çayın çağlayan zümzüməsidi.

Bir günəş bəs edir cümlə-cahana,
Bir misra bəs edir onu duyana,
Kiçik hədiyyədir Azərbaycana,
Bilsinlər şairin bu haqq səsidi.

Bir hikmət yaşayır onun adında,
Bir sevgi qüruru var inadında,
Bir şeir qalacaq elin yadında,
Ömür karvanının fəlsəfəsidi.

## İTİRMƏ

Nə qazansan düz adınla gəl qazan,
Bu dünyada vəfadarı itirmə.
Taleyi, qisməti Tanrıdır yazan,
Dost yanında etibarı itirmə.

Çalış aldanma sən zinətə, qaşa,
Əlhəd daşı kimi tuşlanıb başa
Səni sevib sirrin verən sirdaşa,
Bir aşiqtək düz ilqarı itirmə.

Çox sevilən, çox tanınan nər kimi,
Oğul kimi, ata kimi, ər kimi,
İşıq saçan, parıldayan zər kimi,
Sevib seçən yar, dildarı itirmə.

Boş- boşuna yersiz gülüb ağlama,
Səbirli ol, çaylar kimi çağlama.
Tez- tələsik kimsəyə bel bağlama,
Qamətini, şah vüqarı itirmə.

Ucalanda ayağından çəkərlər,
Gül yerinə yoluna kol əkərlər.
Sonra sənin yerinə göz dikərlər,
Ayıl, onda sən qərarı itirmə.

Dost seçəndə ibrət götür çoxundan,
Lazım gəlsə gözünü yığ yuxundan.
Bir zalımın iti müjgan oxundan,
Hər an qorun, iftixarı itirmə.

## QARABAĞ

Dağların nəfəsi,suların səsi,
Anamın nəğməsi səsim ,Qarabağ!
Qoy sussun kamanın acı naləsi,
Yollardan itməsin izim, Qarabağ!

Hələ gözüm qalıb Cıdır düzündə,
Zənguləm haqq umur,göyün üzündə,
İsa bulağının çeşmə gözündə,
Gəlib qurbanımı kəsim,Qarabağ!

Qalxım mən Kis dağa atın belində,
Bir gözəl səsləyim yovşan əlində,
İgidlər yurdunda,ərən elində,
Yarımla barışıb,küsüm,Qarabağ!

İndi nalə çəkir,kaman da,tar da,
Sönmüş ocaqlarım qalıbdır darda,
Yaşasam xan kimi,olsam da harda,
Toxunsun daşına üzüm,Qarabağ!

Əzəldən dünyanın işi kələkdi,
Haqqın söz toxumun Mübariz əkdi,
Sənə qovuşmağım nə uzun çəkdi,
Vüsalın olacaq,bəsim,Qarabağ!